# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ MİLLİ KİTABXANALAR

DOS. KAZİMİ P.F.

*Müasir dövrdə Milli Kitabxana adı altında çox sayda kitabxanalar fəaliyyət göstərməkdədir ki, bu kitabxanaların əsas ümumiləşdirici cəhəti öz dövlətlərinin baş kitabxanaları funksiyasını yerinə yetirməkdir.*

***Açar sözlər:*** milli kitabxanalar, kitabxanaların funksiyaları,beynəlxalq əməkdaşlıq, beynəlxalq inteqrasiya.

Milli kitabxana termini söz birləşməsi olaraq Fransız inqilabı illərində meydana gəlmişdir. Fransız krallarının saray kitabxanaları 1537-ci ildə I Fransisk tərəfindən "Montpel-erskomu ediktu" adlandırılan qanunla Fransada çıxan kitabların məcburi nüsxələrini almaq statusunda olan kitabxana olaraq 1789-cu ildə xalq mülkiyyətinə çevrildi və "Fransa Milli Kitabxanası" adı verildi. Həmin vaxtdan etibarən elmi ədəbiyyatda "Milli Kitabxana" termini istifadə olunmağa başlandı.

Qərbi Avropa dillərində "Milli"(National) termini, xüsusilə də ingilis, alman və roman dillər qrupunda xalq, vətən, dövlət anlayışları ilə eyni məna daşıyır. Məsələn, rus dilinə tərcümə zamanı Milli Kitabxana (Nationalnaya biblioteka) dövlət kitabxanası kimi tərcümə edilməli idi. Bu yalnız ona görə deyildi ki, kitabxananın tarixi formalaşması və ölkənin mürəkkəb milli tərkibi bunu belə tələb edirdi. Eləcə də Milli təhlükəsizlik, Milli bayraq, Milli maraqlar və digər bu kimi anlayışlara xüsusi şərh vermək lazım gəlirdi.

Kitabxanaşünas mütəxəssislər arasında uzun müddət hansı kitabxanaları Milli kitabxana adlandırmaq haqqında vahid fikir yox idi. İngiltərədə 1938-ci ildə L.M.Xerrodun "Kitabxanaların qlossarisi" adlı əsərində milli kiabxanaya ilk dəfə tərif verməyə səy göstərir. Orada deyilir: "Bu dövlət hesabına təmin olunan və millətə bütünlüklə xidmət edən kitabxanalardır. Ənənəvi olaraq onlar məcburi nüsxə almaq hüququna malikdirlər və bu kitabxanaların funksiyası gələcək nəsillərə kitab, qəzet və dövri mətbuatın toplanması və mühafizəsini həyata keçirməkdir."

Belə ümumiləşmə 1934-cü ildə A.Esdeylin çapdan çıxmış və 21 dövlətin kitabxanalarından bəhs edən "Dünyanın Milli Kitabxanaları" adlı kitabına əsaslanaraq ortaya qoyulmuşdu. Kitab dövrün mədəni ictimaiyyətinin diqqətini cəlb etmiş və müəllif 1957-ci ildə artıq 31 dövlətin milli kitabxanasından bəhs edən kitabın 2-ci nəşrini çap etdirmişdi.

1957-ci ildə Venada keçirilən Milli kitabxanalarla əlaqədar Avropa ölkələrinin Beynəlxalq simpoziumunda da Milli Kitabxana anlayışının şərh olunması, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsinə cəhd olundu.





Simpoziumun rəhbəri Pier Burjua qeyd edirdi ki, simpoziumda iştirak edən kitabxanaların müxtəlifliyi, fəaliyyət istiqaməti, masştabı, funksiyaları o qədər fərqlidir ki, biz hələ də deyə bilmirik ki, hansı kitabxanaları Milli kitabxanalar adlandıra bilərik.

Vena simpoziumunun materiallarını təhlil edən kitabxanaşünas Q.Barston milli kitabxana anlayışını geniş məzmunlu şərh etmək təklifini irəli sürür. Məsələn, ilk növbədə milli-regional fəaliyyət göstərən kitabxanaları (Şotlandiya, Uels Milli kitabxanalarını) Milli Kitabxana olaraq adlandırır. Eləcə də iki funksiyalı kitabxanaları da (məsələn, Norveçin və Finlandiyanın Milli kitabxanaları eyni zamanda universitet kitabxanalarıdır, ABŞ və Yoponiyada Milli kitabxana olmaqla yanaşı, eyni zamanda parlament kitabxanalarıdır, eləcə də Hindistan milli kitabxanası eyni zamanda Kəlküttə şəhər mərkəzi kütləvi kitabxanasıdır) Milli Kitabxana hesab etmək olar. Milli Sahəvi kitabxanalar – buraya Slovakiya Elmi-Texniki Kitabxanası, Rusiya Dövlət Elmi-Texniki Kitabxanası, görmə qüsurlular üçün regional mərkəzi kitabxanalar daxil edilir. O cümlədən, tarixi ənənələrinə görə Milli Kitabxana adlandırılmış kitabxanalar da (əgər hazırda Milli Kitabxana funksiyalarını yerinə yetirmirsə, məsələn, Florensiya Milli Kitabxanası) Milli Kitabxana adlandırıla bilər.

Vena simpoziumundan sonra kitabxanaşünas mütəxəssislər milli kitabxana anlayışını xarakterizə edən xüsusiyyətlər və ona məxsus funksiyaların öyrənilməsi və şərh olunması işini davam etdirdilər. Vena simpoziumunda iştirak edən Britaniya Muzey Kitabxanasının direktoru F.Frensis qeyd edirdi ki, "Ölkənin milli kitabxanası - ölkənin bütün çap məhsullarını gələcək nəsillər üçün toplayan və qoruyan kitabxanalar hesab edilməlidir". Həmin dövrdə Belçikanın tanınmış kitabxanaşünası Q.Libers hesab edirdi ki, Milli kitabxana statusu ölkədə digər kitabxanalar arasında liderlik edən kitabxanaya verilməlidir. Nəhayət, 1963-cü ildə İFLA "Dünya kitabxanaları" adlı uzunmüddətli proqramında Milli kitabxana anlayışını şərh etdi. Orada deyilirdi - Milli kitabxana milli və beynəlxalq funksiyaları yerinə yetirən geniş kitabxana müəssisələrini ifadə edir.

1967-ci ildə milli kitabxananın yaradılması ilə əlaqədar təşkil olunmuş İngiltərənin dövlət komissiyası da Milli kitabxananın yaradılmasında Milli (dövlət) masştabda fəaliyyət göstərməsini əsas meyar olaraq qəbul etdi.

YUNESKO 1970-ci ildə keçirilən 16-cı sessiyasında tövsiyə xarakterli kitabxanaların təsnifatını hazırladı və burada Milli kitabxananın əsas funksiyası olaraq dövlətin bütün çap məhsullarını toplayan və mühafizə edən, eləcə də depozitar funksiyanı yerinə yetirən əsas kitabxana olduğunu qeyd etdi. Lakin bununla yanaşı, müxtəlif fikirlər yenə də səsləndirilməkdə davam edirdi. Fransa Milli Kitabxanasının direktoru E.Denneri Milli Kitabxananın dövlətə mənsub olduğunu əsas xüsusiyyət hesab edir, alman kitabxanaşünası

X.Kuntse çap məhsullarının milli biblioqrafiyalaşdırılmasını həyata keçirmək işini Milli kitabxananın əsas funksiyası hesab edirdi. Milli kitabxananın dövlətin mərkəzi kitabxanası olmasını təklif edənlər də mövcud idi.

Hər bir kitabxana öz sosial məqsədlərini müəyyən istehsal funksiyalarını icra edərək həyata keçirir. Kitabxanaların bu və ya digər tipinin sosial təyinatına uyğun olan bu funksiyalar böyük praktik əhəmiyyət kəsb edir.

Bu funksiyaların yerinə yetirilməsi resursların rasional şəkildə istifadəsinə nail olmaq üçün əhəmiyyətli və məcburidir.

Kitabxanalar arasında qarşılıqlı əlaqələrə obyektiv ehtiyacın gücləndirilməsi şəraitində, kitabxana sistemlərinin formalaşma və inkişaf tendensiyası bu məsələnin həllini gündəmə gətirdi. Buna görə də son 10 illiklər ərzində müxtəlif ölkələrdə milli kitabxanaların yerinə yetirdikləri çoxsaylı funksiyalar əsas alınaraq kitabxanaşünaslıq elmi bu problemləri öyrənməyə və təhlil etməyə başladı.

Birinci belə rəsmi sənədləşmə 1955-ci ildə Kitabxanaların və sənəd-informasiya mərkəzlərinin III Konqresi çərçivəsində həyata keçmişdi. Brüsseldə İFLA-nın 21-ci sessiyasında 13 Milli Kitabxana direktorunun iştirakı ilə Milli Kitabxana məsələləri haqqında xüsusi qətnamənə qəbul olunmuşdur. Bu iclası Milli Kitabxanaların funksiyaları və onun inkişaf yolları haqqında ilk beynəlxalq müzakirə hesab etmək olar.

Qətnamədə qeyd edilirdi: "Hər bir ölkənin heç olmasa bir mərkəzi kitabxanası olmalı, (Milli kitabxana) ölkənin bütün çap məhsulunu kitabxana işinin standartlaşdırılması qaydasına uyğun olaraq gələcək nəsil üçün saxlayabilmə bacarığına malik olmalıdır".

3 ildən sonra bu məsələ Avropanın milli kitabxanaları simpoziumunda iştirakçılar tərəfindən yenidən müzakirəyə təqdim edildi. Burada qəbul edilmiş tövsiyələrdə qeyd edilirdi ki, Milli kitabxananın vəzifəsinə bütün milli çap məhsullarının komplektləşdirilməsi və saxlanılması, komplektləşdirmənin koordinasiyasını həyata keçirmək, xarici ədəbiyyatla ehtiyacını təmin etmək, ölkənin biblioqrafik xidmət işinin inkişafı üçün, bu ərazidə bütün fəaliyyətin koordinasiyası və onun standartlarını, eləcə də metodlarını hazırlamaq; şəxsi fondların çap kataloqlarının, cari və tələb olunan retrospektiv və tematik biblioqrafik vəsaitlərin hazırlığı, milli biblioqrafiyaya, milli biblioqrafiyanın biblioqrafiyası, bütün mövcud informasiya mənbələri və biblioqrafik göstəricilər haqqında məlumatların kumulyasiyası, ölkə kitabxanaları tərəfindən soraq-biblioqrafik xidmət; beynəlxalq biblioqrafik fəaliyyətdə iştirak: informasiya və fondların tamlığı sahəsində praktik normaların hazırlaması kimi məsələlər əks olunurdu.

İFLA-nın 1963-cü ildə keçirilmiş iclasında həmin funksiyalar qısaldılmış formada tövsiyə olunurdu.





Kitabxanaların inkişafının uzunmüddətli proqramında, məhz: komplektləşdirmə və məcburi nüsxələrin saxlanılması; çap kataloqlarının və tematik biblioqrafik vəsaitlərin nəşri; beynəlxalq biblioqrafik fəaliyyətdə iştirak; toplu kataloqların hazırlanması; fondların mühafizə və yenilənməsi; kitabxana kadrlarının hazırlığında iştirak kimi əhəmiyyətli istiqamətlər göstərilirdi.

1963-cü ildə Danimarkalı kitabxana mütəxəssisi İ.B. Maqnussen Milli kitabxaların növbəti əsas funksiyalarını müəyyənləşdirmək məqsədi ilə yeni fikirlər irəli sürdü: Yerli nəşrlərlə tam komplektləşdirmə işini həyata keçirmək; xarici ədəbiyyatla komplektləşdirmə, kitab muzeyinin təşkili; oxucuların fondlara daxil olma təminatı (Fondlara tam əlçatarlığın təmin olunması); ilk növbədə milli biblioqrafiyanın, soraq-biblioqrafik xidmətin həyata keçirilməsi və biblioqrafik göstəricilərin nəşri, kitabxanaçıların ixtisasının artırılmasında iştirak; ölkənin kitabxana xidmətinin planlaşdırılmasında iştirak bu funksiyalara daxil edildi.

60-cı illərin ortalarında İFLA-nın universitet və milli kitabxanalar seksiyasının təlimatına uyğun olaraq ingilis kitabxanaşünası K.Xamfriz dünyanın 4 böyük Milli kitabxanasının fəaliyyətinin müqayisəli analizini həyata keçirdi.

Buraya, o zaman SSRİ-nin dövlət kitabxanası kimi tanınan V.İ.Lenin adına Kitabxana, Britaniya Muzey Kitabxanası, Fransa Milli Kitabxanası və ABŞ Konqres Kitabxanası daxil edildi və bu kitabxanaların təcrübələri əsasında Milli kitabxanaların müqayisəli tədqiqatlarına başlandı. O, bu kitabxanalar tərəfindən yerinə yetirilmiş bütün funksiyaları üç qrupa böldü:

1.Əsas olan funksiyalar,
2. Arzu olunan funksiyalar
3. Vacib olmayan funksiyalar.

Əsas funksiyalara – yerli nəşrlərin tam kolleksiyasının komplektləşdirməsi; yerli çap nəşrlərinin məcburi nüsxəsinin toplanması və saxlanılması; xarici ədəbiyyatla komplektləşdirməni həyata keçirmək; milli biblioqrafiyanın nəşri; biblioqrafik informasiya təminatı; öz fondlarının kataloqlarının müntəzəm nəşri.

Vacib olmayanlara funksiyalara — beynəlxalq və daxili kitab mübadiləsinin mərkəzləşdirilməsi; gözdən qüsurlu oxuculara kitabxana xidmətinin təşkili; kitabxanaçı kadrların hazırlığı, ölkə kitabxanalarına metodik dəstək və rəhbərlik; milli kitabxana xidmətinin inkişafı və idarə edilməsində iştirak.

Arzu olunan funksiyalara – BKA-da (Beynəlxalq Kitabxana Assossasiyası) iştirakını təmin etmək; əlyazmaların toplanması və kitabxana işi sahəsində elmi-tədqiqat işi funksiyaları daxil edilmişdi .

Asiya və Sakit okean ətrafı ölkələrdə Milli Kitabxanaların inkişafına dair 1964-cü ildə keçirilən seminarda növbəti keyfiyyətcə yeni funksiyalar tövsiyə edildi. Buraya ölkə kitabxanaları arasında aparıcı mövqeyini təmin etmək, bütün milli nəşrləri mühafizə etmək; digər informasiya tutumlu materialları komplektləşdirmək, ölkə kitabxanaları ilə əməkdaşlığı həyata keçirmək, dövlət maraqlarına xidmət etmək kimi mühüm funksiyalar əlavə olundu.

1966-cı ildə görkəmli rus kitabxanaşünası İ.P.Kondakov Milli kitabxanaların əsas funksiyasını milli nəşrlərin tam arxivini yaradan, geniş ictimai kitabxana olaraq fəaliyyət göstərən və biblioqrafik metodik elmi mərkəz olaraq dəyərləndirirdi.

Elə həmin ildə (1966) "Latın Amerikası Milli kitabxanalarının inkişafı və əsas funksiyalarının milli çap nəşrlərinin toplanması və mühafizəsi" mövzusunda geniş regional tədbir keçirildi. Burada soraq-biblioqrafiya fondunun komplektləşdirilməsi vasitəsilə xarici və yerli oxuculara kitabxana xidməti göstərmək, toplu kataloq, milli və digər biblioqrafik nəşrlər hazırlamaq, yerli və beynəlxalq kitab mübadiləsini təşkil etmək Milli kitabxanaların funksiyalarına aid edilirdi.

1970-ci ildə Kampaledə təşkil olunmuş konfransda Afrikanın milli informasiyalaşdırma və kitabxanaçılıq xidmətinin idarə olunması və inkişafı problemləri ekspertlərin tövsiyələrində öz əksini tapmış və Milli kitabxanaların əsas funksiyaları aşağıdakı kimi müəyyənləşdirilmişdi: Ölkədə kitabxana işinin inkişafında aparıcı rol oynayır, bütün yerli çap məhsullarını toplamaq və mühafizə etməklə yanaşı xarici nəşrləri də komplektləşdirmək, milli biblioqrafiyanın nəşrini həyata keçirmək, çap əsərləri və informasiyanın milli və beynəlxalq mübadiləsini təşkil etmək.

1970-ci ildə YUNESKO-nun 16-cı sessiyasında milli kitabxana funksiyalarının formalaşdırılması, kitabxanaların statistik uçotu, bütün vacib sənədlərin mühafizəsi və komplektləşdirilməsi, retrospektiv milli bibliorafiyanın hazırlanması, xarici nəşrlərin komplektləşdirilməsi və mühafizəsi kimi məsələlər də müzakirə olunmuşdur.

1976-1980-ci illərdə "Sosial cəmiyyətin inkişafında milli kitabxanaların tipoloji xüsusiyyətləri" adlı beynəlxalq tədqiqat həyata keçirildi. Əldə olunmuş nəticələrin bir hissəsi ekspert fikri olaraq diqqətdən kənarda qaldı, digər bir hissəsi, nəticədə Milli kitabxanaların növbəti funksiyaları olaraq ortaya çıxdı. Bu funksiyalar üç qrupda ifadə olunurdu.

I qrupa – Milli kitabxana ölkənin mərkəzi kitabsaxlayıcısı, mərkəzi ictimai kitabxanası, yerli və xarici nəşrlərin komplektləşdirilməsini həyata keçirən müəssisə, kitabxanaşünaslığın əsas problemlərinin elmi-tədqiqat mərkəzi kimi funksiyalar daxildir.





II qrupa – (A yarımqrupuna), fondun mühafizəsi, oxuculara xidmətin təşkili, kitabxanalara metodik mərkəz kimi; elmi-texniki informasiya sisteminin elm sahələrinə görə məlumat mərkəzi funksiyası;

II qrupa – (B yarımqrupuna), kitabxana prosseslərinin avtomatlaşdırılması mərkəzi; tövsiyə biblioqafiyasının təlim mərkəzi; təlim və ixtisas artırma mərkəzi; kitab muzeyi funksiyası daxildir.

III qrupa – sürətçıxarma mərkəzi; xüsusi növ nəşrlərlə xidmətin təşkili mərkəzi; uşaq və gənclər kitabxanası mərkəzi; gözdən qüsurlular üçün kitabxana xidməti mərkəzi funksiyaları daxildir.

1977-ci ildə "Milli kitabxana və informasiya xidmətinin inkişafına dair qaydalar toplusu" işıq üzü gördü. Onun müəllifləri K.Penna, D.Foskett və P.Syel Milli kitabxanaların növbəti funksiyalarını yenidən redaktə edərək qeyd hazırladılar: bütün yerli və xarici nəşrlərin toplanması, mühafizəsi və emalı mərkəzi; milli biblioqrafiyanın yaradılması, informasiya və nəşrlərin beynəlxalq və daxili mübadilə mərkəzi; kitabxana xidməti əlaqələrinin inkişafı mərkəzi kimi funksiyalar burada öz əksini tapırdı.

Nəhayət, 1980-ci ildə Britaniya kitabxanalarının rəhbərlərindən biri olan M.Layn Milli kitabxanaların növbəti funksiyalarını irəli sürdü. O, Milli Kitabxanaların əsas funksiyasının əlyazma və digər informasiya vasitələrinin (məcburi nüsxələr əsasında) mərkəzi kolleksiyanı formalaşdırmaq olduğunu qeyd etdi. Cari və retrospektiv milli biblioqrafiyanın nəşri; milli kitabxanaçılıq mərkəzinin fəaliyyət strukturu, milli nəşrlər fondu, daxili və xarici kitab mübadiləsi mərkəzi kimi funksiyalar əsas funksiyalara daxil idi.

Əlavə funksiyası – kataloqların nəşri, sərgilərin təşkili, kitabxanaşünaslıq sahəsində tədqiqatlar, ixtisaslı kadrların hazırlanması, kitabxana prosesləri sahəsində təcrübə və təlim mərkəzi kimi qeyd edilirdi. Vacib funksiyalar olaraq ölkə ilə əlaqədar olan çap məhsullarının komplektləşdirilməsi, gözdən qüsurlular üçün kitabların toplanması vacib funksiyalardan hesab edilirdi.

Milli kitabxanaların tipoloji funksiyalarını obyektiv meyarlar müəyyən edir. Belə ki, bu meyarlar onların sosial məqsədini həyata keçirməyə kömək edir. Bu baxımdan bütün funksiyaları iki qrupa bölmək olar. Birinci funksiya bu məqsədlərin həyata keçirilməsi üçün bir vasitə kimi çıxış edir və bu funksiyalara malik olan böyük kitabxanaları digər tip kitabxanalardan fərqləndirir. Bunlar əsas funksiyalar hesab olunur.

İkinci qrup hər bir kitabxananın fəaliyyətində xüsusi şərtlər həyata keçirərək bu funksiyanı yerinə yetirir: ölkədə kitabxana xidmətinin ümumi vəziyyəti onun coğrafi əhatəsi, tarixi ənənələri, xüsusən mədəni inkişaf buraya daxildir. Bunlar isə əlavə funksiyalar hesab olunur.

Bəzi ölkələrin Milli Kitabxanaları eyni vaxtda universitet kitabxanaları funksiyalarını yerinə yetirir, bir hissəsi savadsızlığı aradan qaldırmaq üçün

işlər görür, digərləri korlara (gözdən qüsurlulara) kitabxana xidməti göstərir və s.

Milli kitabxanaların bəzilərinin qrup olaraq "İkili funksiyaya" ayrılması Q.Barston və M.Laynın qeyd etdiyi kimi, mütləq şərt deyil, tarixi proseslərdə yaranmış obyektiv şərtlərlə izah olunur.

Kitabxanaların tipoloji funksiyaları yalnız lazımi obyektiv xüsusiyyətləri müəyyənləşdirmir, eyni zamanda onun detallarını və komponentlərini vahid formada müəyyənləşdirir.

Milli kitabxanaların funksiyalarından bəhs edərkən K.Xamfriz iki ayrı funksiyanı xüsusilə qeyd edir; yerli nəşrlərin tam kolleksiyasını komplektləşdirmək və məcburi nüsxələrin komplektləşdirilməsi və mühafizəsi.

Bu dövrdə bir çox resursların mühafizəsi vahid funksiya kimi hesab olunurdu,başqa bir qrup ekspertlər isə onu 2 yerə ayırırdı. Onlar Milli kitabxananın fəaliyyətinin əsas funksiyalarından biri olaraq kitabxanaşünaslığın problemlərini öyrənən elmi-tədqiqat mərkəzi kimi qeyd edir, eyni zamanda digər mütəxəssislər yalnız elmi-tədqiqat mərkəzi olduğunu vurğulayırdı.

Çap məhsullarından ictimai istifadəni təşkil edən bir təşkilat kimi kitabxana üç ümumi funksiyanı yerinə yetirir: 1.Təhsil-tədris fondunun təşkili; 2. Biblioqrafik informasiya fondunun təşkili; 3. Xidmət işinin təşkili. Bu funksiyaların üç vacib şərt olmadan həyata keçirilməsi, çap məhsullarının ictimai istifadə olunması mümkün deyil.

1.Sənədlərin mövcudluğu;

2.Sənədlərin mövcudluğu haqqında istehlakçıların məlumatı, (biblioqrafik məlumat);

3.Sənəd ehtiyacının qarşılanması(xidmət).

Bu üç əsas funksiya hər bir kitabxanaya xas olan fəaliyyət istiqamətidir. Bu funksiyalardan hər hansı birinin olmaması onun sosial məqsədlərinin həyata keçirilməsinin qarşısını alır. Lakin bunlara baxmayaraq kitabxanaların hər bir tipi yalnız onlara xas olan xüsusiyyətləri müxtəlif şəkildə həyata keçirir. Bu xüsusiyyətlər bütün tip kitabxananın sosial məqsədləri lə əlaqədardır.

Tipoloji funksiyada 2 faktor qarşılıqlı əlaqədədir; Kitabxanaların ümumi funksiyaları və ictimai sosial institut olaraq kitabxanaların sosial məqsədləri.

Milli kitabxanaların təklif olunan 8 tipoloji funksiyasını nəzərdən keçirək;

Milli kitabxanaların I tipoloji funksiyası yerli nəşrlərlə fondun formalaşmasını tam komplektləşdirmə və daimi mühafizə prinsipi əsasında həyata keçirir. Kitab-informasiya fondunun xarici nəşrlərlə





komplektləşdirilməsi sahəsində Milli kitabxana digər kitabxanalardan öz dolğunluğu ilə fərqlənir. Demək olar ki, bütün xarici nəşrləri (maksimum) öz fondunda cəmləşdirir.

Milli kitabxanaların II tipoloji funksiyası olaraq xarici nəşrlərlə fondu formalaşdırmaq məqsədi ilə onların komplektləşdirilməsini və mühafizəsini dövlətin imkanları və maraqları çərçivəsində həyata keçirməkdir.

Biblioqrafik informasiya kompleksini həyata keçirməsi funksiyasına - cari və retrospektiv milli biblioqrafiya; milli toplu kataloqların yaradılması; milli kitabxana fondunun ictimai kataloqunun təşkili; tematik biblioqrafik göstəricilərin təşkili; milli biblioqrafiyanın biblioqrafiyasını hazırlamaq; beynəlxalq biblioqrafik nəşrləri toplamaq və fonda daxil etmək; biblioqrafik informasiya mənbələrinə əsaslanaraq soraq bibliorafiya aparatının təşkili; soraq biblioqrafiya xidməti.

Kitabxana fondunu tam ifadə edən kataloqların təşkili və nəşri, tematik-biblioqrafik göstəricilərin hazırlanması. Beynəlxalq biblioqrafik nəşrlərin toplanması yalnız milli kitabxanalarda deyil, digər kitabxanalarda da həyata keçirilir, lakin milli kitabxananın xüsusi tipoloji funksiyalarını biz bu kitabxanalarda görə bilmərik. Digər 3 funksiya isə- milli biblioqrafiyanın hazırlanması, biblioqrafik informasiya mənbələri əsasında toplu kataloq və milli soraq bibliorafiya aparatının təşkili yalnız Milli kitabxanaya aiddir.

Milli kitabxananın növbəti kompleks funksiyası III funksiyası oxuculara xidmətlə əlaqədardır. Aparılan tədqiqatlar göstərir ki, milli kitabxanada oxuculara xidmət iki prinsipin birləşməsi əsasında həyata keçirilir; əlçatarlığın təmin olunması və prioritetlər. Milli kitabxananın geniş əhatəli fondunun olması onların KAA (kitabxanalar arası abonement) fəaliyyətinin təşkilatçısı edir.

İ.P.Kondakov qeyd edirdi ki, Milli kitabxana – ölkənin əsas ictimai kitabxanasıdır. O öz fondunu yalnız istifadə üçün nəzərdə tutmur, eyni zamanda biblioqrafik informasiya vasitəsilə öz məzmununu aşkar edir.

Bu iki prinsipin birləşdirilməsi müasir şəraitdə Milli kitabxananın sosial təyinatına tam uyğunluq təşkil edir. Bununla yanaşı bu birləşmə unikal xarakter daşıyır.

Milli kitabxanaların IV tipoloji funksiyası əsas prioritet və əlçatarlıq prinsipləri əsasında biblioqrafik informasiya xidmətini həyata keçirir.

Ölkədə kitabxana işinin inkişafında iştirak IV funksiyanı özündə əks etdirir. Kitabxana proseslərinin mərkəzləşdirilməsi, kitabxana fəaliyyətinin koordinasiyası, metodik iş, kitabxana işçilərinin ixtisaslarının artırılması və s.

Milli kitabxanaların V funksiyası biblioqrafik funksiyaların mərkəzləşdirilməsi və koordinasiyası vasitəsilə dövlət miqyasli idarə etməni həyata keçirir. Burada əsas funksiya metodik və innovativ funksiyadır. Bu funksiya kitabxanalar arasında əməkdaşlığın inkişafı və kitabxana

sistemlərinin formalaşması, yeni və qabaqcıl təcrübənin öyrənilməsi, kitabxana işinin metodoloji prinsiplərinin yaxşılaşdırılması üçün təxirəsalınmaz ehtiyaca çevrilir. Onlar kitabxana proseslərinin əsas istehsalını təmin etməlidir. Bu funksiya şübhəsiz milli kitabxanaların sosial təyinatına uyğundur.

Milli kitabxanaların VI funksiyası metodik prinsiplər əsasında kitabxana fəaliyyətinin inkişafının təmin olunmasından ibarətdir. Buradakı əsas meyar isə yeni texnologiyaların tətbiqidir.

Elmi tədqiqat fəaliyyəti milli kitabxanaların ən yeni funksiyalarından biri hesab edilir. İlk dəfə bu funksiya kitabxana fondunun mühafizəsi və təhlükəsizliyi haqqında olan Vyana simpoziumunda müzakirə edilmişdi. Milli kitabxananın ən gənc funksiyası olmasına baxmayaraq, kifayət qədər inkişaf etmiş, kitabxanaşünaslıq, kitabxana işinin nəzəriyyəsi və təcrübəsi sahəsində ehtiyacları təmin etmiş bir funksiyadır.

Milli kitabxananın VII funksiyası kitabxana işinin elmi əsaslarının öyrənilməsi hesabına inkişafı və dövlət maraqları və tələbləri səviyyəsində təşkil etməkdir.

Milli kitabxananın VIII funksiyası kitabxana fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirir və dünya kitabxana proqramlarında iştirakını təşkil edir.

Milli kitabxanaların fəaliyyətinin sonuncu istiqaməti beynəlxalq kitabxana proqramlarında iştirakdır. Son dövrə qədər kitabxanaların beynəlxaq əməkdaşlığı, o cümlədən milli kitabxana əlaqələrinin ikili , ya da çoxtərəfli xarakter daşıması müxtəlif ölkə kitabxanaları arasında sıx əlaqələrin yaranmasına səbəb olmuşdur.

Beləliklə biz, milli kitabxanaların 8 funksiyasını müəyyən etdik. Onlardan 4-ü yerli (daxili sistemli), digərləri isə standart (xarici sistemli) funksiyalardır.

XVIII əsrin sonlarından başlayaraq Avropa ölkələrində və dünyanın digər inkişaf etmiş ölkələrində elmin, təhsilin, mədəniyyətin sürətli inkişafı, böyük universitetlərin, elmi müəssisələrin, mədəniyyət mərkəzlərinin şəbəkəsinin genişlənməsi, kitab nəşrinin böyük vüsət alması, kitaba, mütaliəyə böyük maraq göstərən təhsilli insanların çoxalması, böyük ziyalılar ordusunun yaranması geniş oxucu dairəsinin genişlənməsinə, oxucuların sayının əhəmiyyətli dərəcədə artması üçün əlverişli şərait yaranmışdı.

Zaman keçdikcə kitabxana oxucularının miqdarının durmadan artması, cəmiyyətdə kitabxana oxucu münasibətlərinin yeni həllini, oxuculara xidmət sisteminin elmi əsaslarla qurulmasını tələb edirdi.

Məhz buna görədir ki, XIX əsr dünya kitabxanaşünaslığı tarixində kitabxanaların həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşdiyi,





yeni kitabxana tiplərinin meydana gəldiyi, kitabxana işində yeni mütərəqqi islahatlar aparıldığı bir dövr kimi xarakterizə olunur.

Qeyd olunduğu kimi, milli kitabxana anlayışı ilk dəfə XVIII əsrin axırlarında meydana gəlmişdir. Lakin dünya kitabxanaları tarixindən məlum olduğu kimi Milli kitabxana funksiyasını daşıyan kitabxanalar orta əsrlərdə cəmiyyətin sosial ehtiyacı olaraq meydana gəlir və formalaşırdı. Bunu sübut edən çoxsaylı nümunələr tarixdə mövcuddur. Əsasən, XIX əsrdən başlayaraq bir qayda olaraq, ölkənin dövlət kitabsaxlayıcısı hesab edilən, rəsmi kitabxana müəssisəsi kimi fəaliyyət göstərən böyük kitabxanalara milli kitabxana statusu verilirdi.

Eləcə də, kitabxana müəssisələrinin xüsusi tipi kimi də milli kitabxanaların meydana gəlməsi XVIII əsrin sonlarına təsadüf edir.

Milli kitabxana meydana gəldiyi dövrdə belə bir fikir mövcud idi ki, milli kitabxanada ancaq “vətən” ədəbiyyatı saxlanmalıdır. Xarici nəşrlərin milli kitabxanaya alınması vacib sayılmırdı. Zaman keçdikcə bu fikrin yanlış olduğu dərk edildi. Milli kitabxanalar dövlətin əsas atributlarından biri olmaqla təkcə bir ölkənin, bir millətin kitab mədəniyyətini toplayıb saxlayan bir müəssisədən, bəşəri dəyərləri, dünyanın ən qiymətli, nadir kitab sərvətini topblayıb saxlayan, beynəlxalq əlaqələr yaradan, mədəniyyətlərarası kommunikasiyanın əsas vasitəsinə, dövlət kitabsaxlayıcısına çevrildi.

Milli kitabxanaya cəmiyyətdə onun tutduğu yerə, məqsəd və vəzifələrinə, rol və əhəmiyyətinə görə diqqət artdı. Milli kitabxanalar haqqında tamamilə yeni ideyalar formalaşmağa başladı. Artıq XIX əsrin əvvəllərində milli kitabxanalar Avropanın və dünyanın bir çox ölkələrində- İngiltərədə, Fransada, Almaniyada, İspaniyada, Danimarkada, Portuqaliyada, İsveçrədə, Rusiyada, Amerikada və s. ölkələrdə fəaliyyət göstərirdi.

Milli kitabxananın cəmiyyətdə tutduğu yeri və mövqeyi elmin, təhsilin, mədəniyyətin inkişafında, beynəlxalq əlaqələrin yaranmasında və formalaşmasında, mədəniyyətlərarası kommunikasiyanın ilk və etibarlı mərkəzi kimi rol və əhəmiyyətini xarakterizə etmək üçün dünyanın bir neçə milli kitabxanasının fəaliyyətini nəzərdən keçirək.

1991-ci ildə Sovet İttifaqının dağılması ilə müstəqilliyini əldə etmiş dövlətlərin yeni, onunla bərabər çətin inkişaf yolu başlandı.Türkdilli dövlətlərin Milli Kitabxanaları bu statusu 1991-2000-ci illər ərzində əldə etdilər. Qazaxıstanda - 1991-ci ildə, Türkmənistanda- 1992-ci ildə, Qırğızıstanda- 1993-cü ildə, Özbəkistanda - 2002-ci ildə Milli Kitabxana statusu əldə edildi. Qazaxıstan Respublikasında yaradılan Akademik Milli Kitabxanaya, Azərbaycanda isə Milli Dövlət Kitabxanasına çevrildi. Azərbaycan və Özbəkistan milli kitabxanasının təsisçisi dövlət, Qazaxıstan, Qırğızıstan, Türkmənistan Milli Kitabxanasının təsisçisi kimi Mədəniyyət

Nazirliyi çıxış edir. Azərbaycan, Türkmənistan və Özbəkistan Milli Kitabxanaları Milli Kitab Palatasını da öz yurisdiksiyasına almışdır.

Ğöründüyü kimi, bir sıra kitabxanalar Milli Kitabxana statusu ilə yanaşı akademik kitabxana, bəziləri isə parlament kitabxanası, bir sıra hallarda Milli Universitet kitabxanası, Mərkəzi şəhər kütləvi kitabxana funksiyalarını da yerinə yetirirlər.

Dünya təcrübəsinin müxtəlif müsbət təmayüllərini öyrənən və öz fəaliyyətinə tətbiq edən Türkdilli dövlətlərin Milli Kitabxanaları müxtəlif səviyyələrdə beynəlxalq əməkdaşlığın subyektidir və müasir qlobal informasiya məkanında uğurla milli-mədəni təmsilçiliyini həyata keçirirlər.

## ƏDƏBİYYAT


**1.** *Xələfov A.A. Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyası.*

**2.** *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. I hissə. Bakı. BDU, 2004. 328 səh.*

**3.** *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. III hissə.*

**4.** *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, "Azərnəşr", 2011, 348 səh.*

**5.** *Xələfov A.A., Mehdiyeva N.D. XX əsrdə Türkiyədə kitabxana işi. Bakı Universiteti xəbərləri. Humanitar elmlər seriyası. 2008, №3. 231-242 səh.*

**6.** *Kazımi P.F. Krım-tatar xalqının mədəniyyət tarixindən (kitabçılıq və kitabxanaçılıq mədəniyyəti). Bakı, Tarix problemləri. 2011, № 10*

**7.** *Kazımi P.F. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, BDU, 2008, 178 səh.*

**8.** *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı. Abc, 2012, 314 s.*

**9.** *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəşünaslığı. (monoqrafiya) Bakı. Mütərcim, 2014, 136 s.*

**10.** *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində dastan və əsatirlər. Bakı. "Kitabxanaşünaslıq və informasiya", 2010, №3.*

**11.** *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində lüğətçilik ənənələri. Bakı, "Kitabxanaşünaslıq və informasiya" 2010, №2, s.64-70*

**12.** *Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətində müqəddəs kitablar. Bakı. "Kitabxanaşünaslıq və nəşriyyat işi", 2010, №2.*

**13.** *Namazov M., Kazımi P. Türkiyə Böyük Millət Məclisi Kitabxanasının müasir fəaliyyəti. Bakı, "Kitabxanaşünaslıq və informasiya" 2011, №2, 45 səh.*







**14.** *Şərifli Kamandar. Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı, "Nurlar". 2009, 190 səh.*

**15.** *Tahirov K. Dünya milli kitabxanaları. (M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası) Bakı, Bakı Universiteti Nəşriyyatı, 2013, 212 s.*

**16.** *Aslan Knyaz. Qədim və orta əsrlər dünya kitabxanaları. I cild. Bakı. "Bakı Universiteti" nəşriyyatı, 2007. 288 səh.*

**17.** *Aslan Knyaz. Qədim və orta əsrlər dünya kitabxanaları. II cild. Bakı. "Bakı Universiteti" nəşriyyatı, 2008. 240 səh.*

**18.** *Əhmədov E. Dünya Milli Kitabxanaları. Bakı, 2008. 135 səh.*

**19.** *Тюлина Н.И.Национальная библиотека. Москва, Книжная палата, 1988,184 ст.*

**20.** *Халафов А.А.Библиотечное дело в Азербайджанской Республике. Баку, Мутарджим, 2015, 162 с.*

**21.** *Basılı Divanlar Kataloqu. (Pr.dok Haluk İspekten) Prof.dok. Mustafa İsen. Ankara. 1997, 138 səh.*

**22.** *Baysal Yale. Kitap və kütüphane tarihinə qiriş. İstanbul. 1991, 92 səh.*

**23.** *Birinci Ali. Osmanbəy və matbaası. Kitabiyyat dərqisi. Ankara, 2011. №1. 3-148 səh.*

**24.** *Duman Hasan. Beyazit Dövlət Kütubhanesi 100 yaşında. İstanbul, 1984. 154 səh.*

**25.** *Erunsal (İsmail E.Erunsal). Osmanlı vakif kütubhanələri. Ankara. 2008, 775 səh.*

**26.** *Qüzəlgöz Mustafa. Eşekli Kütüphane. İstanbul. 1991, 182 səh.*

**27.** *İstik Server. Türkiyedə neşriyyat hareketleri tarihine bir bakış. İstanbul. 1939, 484 səh.*

**28.** *Jale Baysal. Kitap və kütüphane tarihine giriş. İstanbul. 1991, 92 səh.*

**29.** *Kazimi P.F. Qurbanov A.İ. Azərbaycanda kitabxanaçılıq təhsili.Ankara.Türk kütübxanəçiliyi. 2013, №3,c.102-105.*

**30.** *Romaniya yazıları. Prof.dr. İrfan Nasrattinoğlu. Türkiyə. 2006, 248 səh.*

**31.** *Türk kütabhaneleri tarihi. II baskı. İsmayıl E.Erünsal. Ankara, 1991, 344 səh.*

**32.** *Milli Kütubhane (keçmişden Geleceye Körpü).Ankara,2011.*

**33.** *Anadolu Kütubhaneleri.(Bülent Yılmaz). TC kültür ve Turizm Bakanlıgı. Ankara, 2013.500 s.*

## МЕЖДУНАРОДНОЕ СОТРУДНИЧЕСТВО И НАЦИОНАЛЬНЫЕ БИБЛИОТЕКИ

ПАРВИЗ КАЗИМИ

***РЕЗЮМЕ***

Статья рассматривает появление, формирование и развития национальных библиотек и определение функции НБ. Национальные Библиотеки являются главным звеном в обеспечение международного сотрудничеством в библиотечно-информационном деятельности.

***Ключевые слова:*** *Национальные библиотеки, функции библиотек, Международное сотрудничество, Международное интеграция*

## INTERNATIONAL RELATIONS AND NATIONAL LIBRARY

P.KAZIMI

***SUMMARY***

*The creation, forming and development National library and determine functions of the National library considered in the article. National library heads International relations and in the Library information activities.*

***Key words****: National library, functions of library, International relations, International integration*